1. www.belthjven.ru
2. www.dw.com
3. www.belconto.ru
4. www.ncp.ge

## ВЗГЛЯД НА ТВОРЧЕСКОЕ НАСЛЕДИЕ ЛЮДВИГ ВАН БЕТХОВЕНА

***Рафибейли Лала Хаким кызы***

***Резюме***

Третий и последний представитель классической венской школы Л.В.Бетховен один из гениев, оказавших влияние на мировую музыкальную культуру. Одним из важных аспектов творчества Бетховена является разнообразие жанра. Он смог показать себя настоящим новатором в каждом жанре.

## A LOOK AT THE CREATIVE HERITAGE OF LUDWIG VAN BEETHOVEN

***Rafibeyli Lala Hakim***

***Summary***

L.V.Bethoven, the third and last representative of the classical Vienna school, is one of the geniuses who influenced musical culture. The composer known in the history of music as an innovator. One of the important aspects of Beethoven's work is the diversity of the genre. He was able to show himself as a real innovator in every genre.

***Rəyçi: GDU-nun "Musiqi fənləri" kafedrasının baş müəllimi S.Rüstəmova***
***Musiqi fənləri kafedrasının 11 mart 2021-ci il tarixli kafedra iclasının 09 saylı protokolu***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***

**UOT:781.**

## FRİDERİK ŞOPENİN HƏYAT VƏ YARADICILIĞI

***Şabanova Sevil Ağaəli qızı***
***Gəncə Dövlət Universiteti***
**Sevashabanova62@gmail.com.**

**Xülasə:** *Məqalə dahi polyak bəstəkarı və pianoçusu, romanrizmin parlaq nümayəndəsi Friderik Şopenin yaradıcılıq yolunun öyrənilməsinə həsr olunub. Artıq iki əsrdən çoxdur ki, F.Şopenin yaradıcılıq irsi dünya mədəniyyətində mühüm yer tutur. Şəxsiyyətin humanist potensialının formalaşmasına güclü təsir göstərən, yüksək bədii dəyərə malik onun əsərləri konsert və tədris repertuarlarında geniş yer tutur.*

*Aparılan elmi-tədqiqat işinin nəticələri göstərir ki, bəstəkarın musiqi tarixində müstəsna əhəmiyyəti məhz onun fortepiano yaradıcılığı ilə bağlıdır. Bir neçə əsər istisna olmaqla onun onun bütün yaradıcılığı fortepiano musiqisinə həsr olunub. Şopen fortepiano üçün 4 ballada, 4 skertso, 27 konsert etüdü, 24 prelüd, 21 polonez, 58 mazurka, 18 vals, 21 noktürn və s. əsərlərin müllifidir.*

*Şopenin bütün əsərlərində Vətən mövzusunu böyük məhəbbətlə təcəssüm etdirilib. Vətənin təbiətini, xalqının tarixini, həyatını, adət və ənənələrini bəstəkar fortepiano musiqisi ilə tam dolğun əks etdirə bilmişdir. Çox vaxt Polşanın obrazını canlandırmaq üçün bəstəkar mazurka ritmindən istifadə edir. Milli polyak rəqsi olan mazurka Şopen üçün Polşanın bir rəmznə çevrilmişdir.*

**Açar sözlər:** bəstəkar, pianoçu, yaradıcılıq, musiqi, romantizm
**Ключевые слова:** композитор,пианист,творчество, музыка, романтизм
**Key words:** composer, pianist, art, music, romance

Friderik Şopen (1810-1849) görkəmli Polşa bəstəkarı və pianoçusu, romantizm dövründə yaranmış yeni milli məktəblərdən biri olan Polşa bəstəkarlıq məktəbini dünya miqyasına çıxaran bəstəkardır. Şopenin yaradıcılığı dərin kökləri ilə Polşa xalq musiqisinə, ədəbiyyatına, incəsənətinə bağlıdır. Vətən mövzusu bir ana xətti kimi bütün Şopen yaradıcılığından keçir.

Frederik Şopen 1 mart 1810-cu ildə Polşanın paytaxtı Varşavanın yaxınlığındakı Jelyazova Volyada anadan olmuşdur. Onun anası Yustina Kjijanovskaya polyak, atası Nikolay Şopen isə Polşaya yerləşmiş və tamamilə bu bölgənin adət-ənənələrini qəbul etmiş fransız idi. F.Şopenin atası skripka və fleytada, anası isə oxumağı və piano çalmağı bacarırdı. Şopenin ailəsi bir müddət Qraf Skarbekin malikanəsində yaşamış və ata Nikolay burada fransız dilindən ailə müəllimi olaraq çalışmışdır.

Friderik dünyaya gəldikdən sonra atası Varşavada yerləşən litseydən birinə müəllim olaraq dəvət olunur və Şopenin ailəsi Varşavaya köçür. Anası və atası ən kiçik yaşlarından onun musiqi təhsilinə xüsusi diqqət yetirirdilər. Uşağın hələ ilk danışmağa başladığı dövrdə musiqi səslərini eşidərkən ağlaması anası və atasını çox üzmüşdü, çünki onlar kiçik Friderikin musiqi sevmədiyini zənn edirdilər. Lakin sonralar Friderikin bu sənətə o qədər dərindən bağlı olduğunu, ona nə qədər böyük sevgi və qabiliyyəti olduğunu göstərdi. Artıq beş-altı yaşlarından o piano üçün yazılmış kiçik həcmli əsərləri müvəffəqiyyətlə ifa edirdi [3.101].

Fortepianoda çalmağı əvvəl anasından və böyük bacısı Lüdvikadan öyrənmişdir. Sonra isə çex pianoçusu və bəstəkarı V.Jivni onun müəllimi olmuşdur. Jivni Şopenin qəlbində İ.S.Bax və V.A.Motsartın sənətinə məhəbbət oyada bilmişdir. Yeddi yaşında ikən Şopen ilk dəfə konsertdə çıxış etmişdir. Elə həmin vaxt Friderikin ilk əsərləri-fortepiano üçün polonez və nəfəs alətləri orkestri üçün marşı çap olunmuşdur. Onu "Polşa Motsartı" adlandırırdılar. Musiqi dərsləri ilə yanaşı Friderik ümumi təhsil də almışdır. 1826-cı ildə o, Varşava Litseyini uğurla bitirib, ali musiqi məktəbinə daxil olur. Burda Şopenə məhşur polyak bəstəkarı İ.Elsner dərs deyirdi. Gənc bəstəkarın püxtələşməsində onun böyük təsiri olur.

1829-cu ildə Şopen ali musiqi məktəbini bitirir. Bu vaxt o, gözəl pianoçu və istedadlı bəstəkar kimi artıq tanınırdı. 1829-30-cu illərdə bəstəkar bir çox fortepiano əsəri – yüksək bədii məzmunu ilə yanaşı zəngin və parlaq melodiyalara malik mazurka, noktürn, vals və etüdlər yazmışdır.

Gənc musiqiçi fransız və alman dillərini mükəmməl bilir, eyni zamanda ictimai elmlərə, xüsusilə də doğma Polşanın tarix və ədəbiyyatına, folklor yaradıcılığı və mədəniyyətinə böyük maraq göstərirdi.

Məşhur rus musiqi nəzəriyyəçisi V.Konenin də göstərdiyi kimi bəstəkar pianonu heç də F.Listin düşündüyü kimi orkestrin çoxsəsli, çox istiqamətli səslənməsini ifadə edə bilən bir alət olaraq görmürdü, əksinə tək bu alətin tembrinə xas olan rəngarənglik imkanlarını üzə çıxarmağa çalışırdı [3.106]. Şopenin yalnız fortepiano tembrlərinə uyğun gələnə koloristik imkanlarından istifadə etməsi onun fərdi üslubunu səciyyələndirən cəhətlərdəndir.

F.Şopen üçün ideya, məzmun və dərin ümumbəşəri fikirlər öncük əhəmiyyətə malik idi.Vətənini böyük məhəbbətlə sevən Şopen bu böyük hissi ömrü boyu qəlbində yaşatmışdır. Təsadüfi deyil ki, ölüm yatağında olduğu zaman belə o, ürəyinin Polşaya aparılmasını vəsiyyət etmişdir. Parisdə torpağa tapşırılan F.Şopenin ürəyi onun öz vəsiyyətinə görə Polşaya, Varşavaya aparılmış və bu günə qədər Müqəddəs Xaç Kilsəsində saxlanılmaqdadır.

Şopenin musiqisində klassik və romantik tendensiyalar vahid üslubda birləşir. Bəstəkar klassik dövrün sənəti ilə birlikdə öz dövrünün bədii mədəniyyətinə, burada meydana gələn yeniliklərə dəyər verən, yaradıcılığında onlardan faydalana bilən bir sənətkar idi. Onun dostları arasında müxtəlif milli mədəniyyətləri təmsil edən və dövrün ən böyük şəxsiyyətlərini görmək mümkün idi. Macar bəstəkarı F.List, alman bəstəkarı R.Şuman, alman şairi H.Heyne, fransız bəstəkarı H.Berlioz, fransız rəssamı Delakrua, eyni zamanda fransız qadın yazıçısı Jorj

Sand kimi dünya mədəniyyyətinə adları qızıl hərflərlə yazılmış sənətkarlar F.Şopen ilə olan dostluqlarını və yaradıcılıq əlaqələrini yüksək dəyərləndirirdilər.

Musiqi mədəniyyətində romantizm cərəyanının yaradıcılarından olan R.Şumanın o dövrlərdə hələ gənc bir musiqiçi olan F.Şopenin əsərlərini dinlədikdən sonra "Papaqlarını çıxarın cənablar, qarşınızda bir dahi var" kimi adətən musiqiçilər arasında istifadə edilən bu klassik sözləri söyləməkdən belə çəkinməmişdir [3.108]. Görkəmli macar bəstəkarı və pianoçusu F.List F.Şopen yaradıcılığı haqqqında deyir: "Şopen poetik hissiyatın inkişafında yeni dövr açmışdır" [3.98]. Rusiya musiqi mədəniyyətinin tanınmış nümayəndəsi A.Rubinşteyn Şopeni fortepianonun "ruhu", "rapsodu" adlandırıdı [2.33]. Həqiqətən də Şopen fortepiano alətinin imkanlarını incəliklərinədək bilir və bunlardan məharətlə istifadə edirdi. Onun ifası poetik obrazlılığı, yüksək virtuozluğu özündə qovuşduran bir üslubda idi. Bəstəkar yaradıcılığı ilə ifaçılığı sıx bağlı olan F.Şopenin bu iki fəaliyyət sahəsi bir-birinə qarşılıqlı təsir göstərmiyə bilməzdi. Şopen dərhal tanınan və heç bir başqa bəstəkarın musiqisinə bənzəməyən bir fortepiano üslubu yaratmışdır.

F.Şopenin fortepiano əsərləri, bəstəkarın pinoçuluq prinsipləri, əsərlərinin interpretasiya məsələləri günümüzə qədər mütəxəssisləri düşündürən, onları maraqlandıran mövzulardandır.

***Ədəbiyyat***

1. Əfəndiyeva E. Musiqi tarixi (Qərbi Avropa musiqi tarixi). Bakı, 2014.
2. Həsanova Ş. "Musiqi tarixində mühazirələr" I hissə Bakı, 2008.
3. Qurbanov B. "Musiqi dünyasının unudulmazları". Bakı, 2015.

Rus dilində:

4. Друскин М. "История зарубежной музыки". Вып. 4. Москва, 1975.
5. Левик Б.В. Музыкальная литература зарубежных стран. Вып. 4, Москва, 1978.
6. Мильштейн М.И. Очерки о Шопене. Москва, 1987.
7. Прохорова И. Хрестоматия по музыкальной литературе зарубежных стран. Москва, 1970.
8. Соловцов А. "Фредерик Шопен: Жизнь и творчество". Москва, 1960.

**ЖИЗНЬ И ТВОРЧЕСТВО Ф.ШОПЕНА**

***Шабанова Севиль Агаали кызы***

***Резюме***

Польский композитор, пианист-виртуоз, педагог Фредерик Шопен автор многочисленных произведений для фортепиано. Крупнейший представитель польского музыкального искусства. Тема родины - главная творческая тема Шопена, которая определила основное идейное содержание его музыки. В шопеновских сочинениях бесконечно варьируются отзвуки народных польских песен и танцев, образы национальной литературы.

Он по новому истолковал многие жанры, обогатил гармонию и фортепианную фактуру, сочетая классичность формы с мелодическим богатством и фантазией.

**F. CHOPIN`S LIFE AND WORK**

***Shabanova Sevil Aqali***

***Summary***

Polish sompiser, pianist-virtuoso, teacher Frederick Chopin is author of many pieces for piano. Greatest ambassador of polish music art. Motherland theme which is main theme of his career emphasized main idea of his music. In Chopin`s composings polish songs, dances and objects of literature has major articulation.

He interpreted many genres, enriched harmony by utilizing classical form with melodic fantasy.

***Rəyçi: GDU-nun "Musiqi fənləri" kafedrasının müəllim S.Abbasova***
***Musiqi fənləri kafedrasının 11 mart 2021-ci il tarixli kafedra iclasnın 09 saylı protokolu***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***